Səh. 2 "Fəaliyyət" – Azər Musaoğlu
Səh. 5 Müsahibə
Səh. 6 Kişilər atları çapıb getdilər – Esmira Ələkbərli
Səh. 6 Xoşbəxtliyin saxta üzü – Afaq Azər
Səh. 3 Düzgün tərbiyə – Hacı Bəkiroğlu
Səh. 4 GÜRCÜSTANIN ÖZƏL UNİVERSİTETLƏRİNDƏ TƏHSİL HAQQI ARTIB
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2026-CI İL
№ 08 (248)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN HÖKUMƏTİNDƏ KADR DƏYİŞİKLİYİ OLUB VƏ VİTSE-PREZİDENT POSTU TƏSİS EDİLİB





Gürcüstan hökumətində kadr dəyişikliyi olub. Acarıstan Muxtar Respublikası hökumətinin sədri Sulxan Tamazaşvili Gürcüstanın daxili işlər naziri təyin edilib.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze Acarıstan Muxtar Respublikası hökumətinin yeni sədri olacaq. Onun bu vəzifəyə namizədliyini Gürcüstan Prezidenti Mixeil Kavelaşvili irəli sürüb. Bu barədə Gürcüstan hökumətində keçirilən brifinqdə məlumat verilib.

Məlumata əsasən, Geka Geladze Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəhbəri vəzifəsini icra edəcək. O, bu vəzifədə Mamuka Mdinaradzeni əvəz edəcək.

Qeyd edək ki, M.Mdinaradze 3 sentyabr 2025-ci ildən DTX-yə rəhbərlik edirdi. Geka Geladze isə 28 may 2025-ci ildən Gürcüstanın daxili işlər naziri vəzifəsində çalışır.

Həmçinin Gürcüstanın hüquq-mühafizə orqanlarının koordinasiyası üzrə dövlət naziri vəzifəsi hökumət strukturuna əlavə olunacaq. Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze hökumət administrasiyasında keçirilən brifinqdə məlumat verib.

Hökumət başçısının sözlərinə görə, sözügedən vəzifəni Mamuka Mdinaradze tutacaq və ona Gürcüstanın Baş nazirinin müavini vəzifəsi də həvalə olunacaq. M.Mdinaradze vitse-prezident vəzifəsini də icra edəcək.

Bundan başqa, xarici işlər naziri Maka Boçorişviliyə Gürcüstanın Baş nazirinin müavini vəzifəsi də həvalə olunub.

Bununla da, Baş nazirin hökumətin tərkibində üç müavini olacaq.

## KOBAXİDZE: GÜRCÜSTAN TÜRKİYƏ İLƏ BÜTÜN SAHƏLƏRDƏ ƏMƏKDAŞLIĞI DƏRİNLƏŞDİRMƏK İSTƏYİR



Gürcüstan Türkiyə ilə tərəfdaşlığını yüksək qiymətləndirir və bu ölkə ilə münasibətləri daha da dərinləşdirmək istəyir. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze Türkiyəyə səfərinin nəticələri ilə bağlı söyləyib.

O bildirib ki, Türkiyəyə səfəri zamanı Prezident Rəcəb Tayyib Ərdoğan ilə görüşdə ticarət-iqtisadi əməkdaşlığın müsbət dinamikasına və birgə regional layihələrin roluna da diqqət yetirilib.

Xüsusilə, həm regionu və Avropanı birləşdirmək, həm də Avropanın enerji təhlükəsizliyini gücləndirmək baxımından Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Cənub Qaz Dəhlizi nəqliyyat dəhlizlərinin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin Orta Dəhlizin potensialını və onun inkişafı ilə bağlı gələcək əməkdaşlığı müzakirə ediblər.

## KEÇMİŞ MÜDAFİƏ NAZİRİ CUANŞER BURÇULADZE 10 İL MÜDDƏTİNƏ HƏBS EDİLİB



Aprelin 23-də Tbilisi Şəhər Məhkəməsində keçmiş müdafiə naziri Cuanşer Burçuladze, onun keçmiş müavini Giorgi Xaindrava, Burçuladzenin qaynı Vasil Mxeidze və Müdafiə Nazirliyinin Təchizat Departamentinin keçmiş rəisi Vladimir Quduşaurinin son məhkəmə iclası keçirilib. Məhkəmə həmin 4 şəxsi təqsirli bilib.

Məhkəmənin hökmü ilə Cuanşer Burçuladze əmlakı müsadirə olunmaqla 10 il müddətinə azadlıqdan məhrum edilib.

Giorgi Xaindrava və Vasil Mxeidze 8 il müddətinə azadlıqdan məhrum olunublar.

Müdafiə Nazirliyinin Təchizat Departamentinin keçmiş rəisi Vladimir Quduşauri isə 4 il müddətinə şərti azadlıqdan məhrum edilib, 10000 lari məbləğində cərimə olunub.



# “FƏALİYYƏT”

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Gürcüstanda azərbaycanlıların yaratdığı və ya azərbaycanlılar üçün yaradılan, qurulan, qeydiyyatdan keçirilən xeyli qeyri-hökumət təşkilatı var. Demək olar ki, hər sahəyə aid təşkilat “fəaliyyət” göstərir. Bir-ikisi də indi mənim ağlıma gəldi, yaddan çıxmamış, həm də bir təklif kimi burada qeyd edim, bəlkə kimsə yaratdı. Məsələn: “Samovar” Gürcüstan Azərbaycanlılarının Çayxanalar İttifaqı; “Təkər” Gürcüstan Azərbaycanlılarının Avtomobil Alverçilərinin Birliyi; Gürcüstan Azərbaycanlılarının Taksi Sürücülərinin İttifaqı; Gürcüstan Azərbaycanlılarının Assimilyasiya Mərkəzi; “Haralısan, Kimlərdənsən?” adlı Gürcüstan Azərbaycanlılarının Yerlibazlıq, Tayfabazlıq Asossiasiyası; “Yaltaq” Könülülür Birliyi; “Siyasətə Qarışmıram” Milli Hərəkatı; “İldə bir partiya dəyiş – inkişaf et” Fərdi İnkişaf Mərkəzi; “Cibim” Biznes Mərkəzi; Tiflis Azərbaycan Tragikomediya Teatrı... Bu qədər yetər, məncə. Lazım gəlsə siyahını artırmaq da olar. Bunlar gələcək üçün.

İndi isə hazırda “fəaliyyət” göstərən təşkilatlarımız haqqında bir-iki söz demək istəyirəm. Demək istəyirəm deyəndə ki, onsuz da bu təşkilatları hamınız yaxşı tanıyırsınız. Kimin necə, nə cür, harada nə iş gördüyünü də yaxşı bilirsiniz. Gürcüstan azərbaycanlıları adından Gürcüstan azərbaycanlıları üçün həqiqətən də iş görən təşkilatlarımız barmaqla sayılacaq qədərdir. İşləri avand olsun! Bir də var Gürcüstan azərbaycanlıları adından özləri, qohum-əqrəbası üçün “fəaliyyət” göstərən təşkilatlar. Adı bizim, dadı onların yəni. Bu təşkilatların fəaliyyətləri əsasən şəkil çəkdirməkdən ibarətdir. Ayda bir-iki dəfə qohum-əqrəbanı toplayıb, qabaqlarında armudu istəkanda xoruzpipiyi çay şəkil çəkdirib feysbukda paylaşırlar ki, biz fəaliyyət göstəririk. Bu təşkilatların “fəaliyyəti” yığılıb tanış-tunuşdan birinin şeir kitabının təqdimatını keçirməkdən, unudulmuş ziyalıdan-zaddan tapıb yubileyini qeyd etməkdən, “şaşki”, nərd oyunları yarışı təşkil etməkdən, yaxud da bayramlarda xalçadan, palazdan çıxarıb sərgiləməkdən ibarətdir. Və ayda bir-iki dəfə bu cür “tədbirlərin”, “fəaliyyətin” şəklini çəkib paylaşmaq onlar üçün kifayətdir. Guya hesabat verirlər...

Maraqlısı da odur ki, bu cür təşkilatlara maliyyə ayıranlar həmişə tapılır. Lazımlı iş görən təşkilatlara gələndə isə pul qurtarır. Görünür, maliyyə verənlər də icmanın xeyirinə ciddi iş görənlərlə işləmək istəmirlər. Çörəyi çörəkçiyə yox, çəkməçiyə verirlər – birini də artıq.

Əvvəl Gürcüstanda Azərbaycan dilində xeyli qəzet, jurnal çıxırdı, icmanın maraqlarından çıxış edən təşkilatlar var idi. Sonra nə oldusa bütün bu qəzet və jurnalların, təşkilatların maliyyələşdirilməsi dayandırıldı, icmanın marağı şəxsi maraqla əvəz edildi.

Başqaları təşkilatlanıb birləşəndə, iş görəndə, biz ayrılmaq, parçalanmaq üçün təşkilatlandırıldıq, hərəmiz bir təşkilatın rəhbəri olub təşkilotulandıq. Üzdəki fəaliyyətimiz şəkil çəkdirib paylaşmaqdan, görünməyən fəaliyyətimiz isə bir-birimizin ayağının altını qazmaqdan, donos yazmaqdan ibarət oldu. Elə uzunmüddətli “fəaliyyət” göstərən, işləyən təşkilatlarımız da məhz donosu çox yazan təşkilatlarımız oldu.

*P.S.*

Bu günlərdə yerli mediada Tiflis Azərbaycan Dövlət Dram Tearının tamaşa nümayiş etdirməsi ilə bağlı xəbər çıxdı qarşıma. 2020-ci ildən bu yana onsuz da şəkil – “hesabat” üçün “fəaliyyət göstərən” teatr hesabatını bu dəfə gürcü dilində veribmiş və “gürcü dilində nümayiş etdirilən tamaşa anşlaqla keçibmiş”. Görəsən teatrın Azərbaycan dilində hazırlanan tamaşaları niyə “anşlaqla keçmir”? 4-5 nəfərin əlində girinc qalan bədbəxt teatrın gürcü dilində tamaşa qoymasına nə lüzum var axı? Olma peşəkar gürcü teatrları gürcü xalqının zövqünü oxşaya bilmirlər və 4-5 nəfərdən ibarət klub səviyyəsində fəaliyyət göstərən Azərbaycan teatrına möhtac qalıblar? Azərbaycanlılar gürcü dilində tamaşaya baxmaq həvəsinə düşsələr gedib hər gün repertuarı dolu olan gürcü teatrlarında baxarlar. Bəs görəsən Azərbaycan teatrı kimlər üçündür, kimlərə xidmət edir? Azərbaycanlılar ana dillərində tamaşa izləmək üçün hara, hansı teatra getməlidirlər? Bilənlər bilir, bilməyənlər teatrın 2020-ci ilə qədər olan fəaliyyəti ilə maraqlansalar fərqi görərlər və təəssüf ki, bu gün Azərbaycan xalqının tarixi mədəniyyət ocağı Azərbaycan mədəniyyətinə dəxli olmayanların, Azərbaycan dilini bilməyənlərin əli ilə necə məhv edilir; kimlərinsə şəxsi maraqları, ambisiyaları uğuruna qurban verilir və günü-gündən həmişəlik bağlanmaq təhlükəsi ilə üz-üzədir. Bax, biz bu cür təşkilatlanırıq, bu cür fəaliyyət göstəririk. Allah işimizi avan eləməsin!

# KORLANAN ZÖVQÜMÜZ



Ötən gün Marneulidə tıxacdayam, əks tərəfdə də tıxac var və mənim bərabərimdə dayanan maşındakı vətəndaşın dinlədiyi musiqini qeyri-ixtiyari olaraq eşidirəm. Son zamanlarda sosial mediada gülünc bir trendə çevrilən bayağı “gəl mənə addım-addım” mahnısına qulaq asır. Telefonda bu cür bayağı mahnılar qarşıma çıxanda nifrətlə tez videonu dəyişirdim, amma tıxacda eşidəndə bu mahnı məni xeyli düşündürdü. Məgər insanımızın zövqü bu qədərmi korlanıb ki, tıxacın verdiyi əsəblə bu mahnını dinləyib özünü sakitləşdirir? Axı bu cür mənasız, bayağı mahnılar insanı sakitləşdirə, ruhunu oxşaya, xəyalını ərşə qaldıra bilərmi? Azərbaycanın bənzəri olmayan musiqi xəzinəsi var. Hər janrda musiqimiz var, dünya şöhrətli sənətkarlarımız, bəstəkarlarımız, şairlərimiz var. Bizi nə vadar edir ki, yaqutu qoyub daşdan yapışırıq.

Görəsən təbliğatmı zəifdir, yoxsa həqiqətən insanların zövqümü korlanıb? İki gündür bu sualların cavabını tapmağa çalışıram. Dost-tanış arasında fikrimi dilə gətirəndə isə “insanların zövqünə niyə qarışırsan” deyə qınayırlar. Məni millətimin gələcəyi, mədəni dəyərləri narahat edir, hətta yuxumu qaçırır. Musiqi də bir çox vərdişlər kimi insanın mənəviyyatına, təfəkkürünə, xarakterinə birbaşa təsir edir. Milli musiqimizin sözlərinə diqqətlə fikir verəndə insanı düşünməyə vadar edir, beynimizi işlədir, ədəbiyyata yaxınlıq yaradır, duyğuları oyadır. Çünki məna var, sənət var, istedad meyvəsidir, müəllifin zəhməti, mənəviyyatı yatır. Mənası olmayan qafiyə insana nə ləzzət verə bilər. Ruhun dəyərli sözlərə, musiqilərə ehtiyacı var. Bədənimizi saxta qidalarla məhv etdiyimiz kimi, ruhumuzu da saxta sözlərlə, bayağı musiqilərlə məhv edirik. Həm bədənən, həm də ruhən özümüz özümüzü xəstələndiririk. Sağlam gələcəyin bərpası üçün kökümüzə, mədəniyyətimizə, mənəviyyatımıza qayıtmağımız şərtdir. Zövq azaddır deyib övladlarımızın, yaxınlarımızın bu cür bayağı musiqilərlə ruhlarını xəstələndirib, mənəviyyatlarını söndürmələrinə göz yummamalıyıq. Hər zövqü azad buraxsaq, insan çox bəlalara düçar olar.

Kriminal mahnılarına qulaq asa-asa azyaşlılarımız nə günə düşdü görürük. Toylara getməyə mən iyrənirəm. Ya azyaşlı uşaqlar çıxıb “oğru mahnısına” oynayacaq, ya da sənəti olmayan “sənətkarların” bayağı mahnıları oxunub onlara oynanacaq. Bu toydan hansı mədəniyyət nümunəsi göstərmək olar? Bu toya Azərbaycan toyu deyə bilərikmi? Zövq azaddır deyə-deyə muğama, saza, qara zurnaya, balabana soyuqluq yaratmadıqmı? Öz xəzinəmizi dəyərdən salmadıqmı? Nizaminin, Füzulinin, Nəsiminin sözlərinə yadlaşmadıqmı? Bəs nə qazandıq? – Təfəkkürsüz bir nəsil. Bəzən zövqlərə gəm vurmaq lazımdır. Hər zövqün tələbini yerinə yetirsə insanın heyvandan nə fərqi qalır? Zövqü də şəxsiyyətimizin inkişafına sərf etməliyik. Pis vərdişdən çəkinmək kimi, pis zövqdən də azad olmaq mümkündür. Zövqlərimiz korlansa şəxsiyyətimiz, mənəviyyatımız korlanacaq. Bu həqiqətən məni narahat edir. Bizə düşünən nəsil lazımdır, zövqünü tətmin edən deyil.

Azərbaycan dövlətinin öhdəsinə də böyük məsuliyyət düşür. Bu cür bayağı mahnıların yaranmasının və təbliğinin qarşısı alınıb, milli musiqinin təbliği artırılsa müəyyən qədər problemi həll etmək olar. Ekranlara dünya şöhrətli sənətkarları deyil də, fiqurası ilə gündəmə gələnləri çıxaranda sonumuzun belə olacağını düşünməliydik.

Bu problem bizi narahat etmirsə, deməli, həmin mahnılara qulaq asa-asa hissiyyatımızı itirmişik. Probelmin fərqində olub ürəyi sızlayanları isə mübarizə aparmağa səsləyirəm. Ən azından nümunə olaq, övladlarımızı nümunəvi böyüdək, toy məclislərimizi nümunəvi edək. O bayağı musiqi oxuyanları Gürcüstan azərbaycanlıları bu günlərə gətirib çıxardı. Fiqurası ilə gündəmə gələn həmin keyfiyyətsiz insanları dollar yağışına bizim həmyerlilərimiz tutdu. Bu gün isə nəticəsini görürük və ağrısını yaşayırıq. Allah axırımızı xeyir etsin...

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# KRESLO



Teatra ilk dəfə daxil olduğumuz vaxtlar yadımdadır. İlk diqqətimi çəkən direktorun kabineti oldu, qabaqda balaca məktəb stolu və stul. Yan otaqda isə rejissorun kabineti vardı. O da eyni sadəlikdə idi. Divarlarda isə o günə qədər qoyulan tamaşaların afişaları asılmışdı. Bir sözlə, biz o vaxt teatrı kreslolarla yox, səhnə ilə tanıyırdıq. Heç kim bizə demirdi ki, "baxın, bu kreslodur, bunun uğrunda yaşamaq lazımdır".

Gələk günümüzə. Bu gün altmış səkkiz yaşında kreslo gözləyən adam tanıyıram. Axı niyə? Niyə mənim altmış səkkiz yaşlı ağsaqqalım hansısa vəzifəli şəxsin qarşısında əzilib-bükülməlidir? Axı sən ağsaqqalsan, niyə özünü bu vəziyyətə salırsan? Mən səndən nə öyüd-nəsihət götürməliyəm? Bir kreslo üçün dəyərmi özünü bu vəziyyətə salamğa? Mənim ağsaqqalım dik duruşlu olmalıdır, çünki elə daha gözəl görünür. Eh, dərd bir deyil ki, yazasan... Belə ağsaqqalları görəndə söz də dəyərini itirir, nəsihət də, özlərini də gözdən salırlar.

Bax, indi birini qoyub digərinə keçirəm. Köhnə sistem işçisi necə gəlib hansısa mədəniyyət ocağımızın, yaxud bir yazarımızın adını daşıyan binaya direktor olmaq istəyər? Bu, doğrudan da gülməlidir. Sən hələ rəhbərlik etmək istədiyin məkanın adını daşıyan şəxsin kim olduğunu, hansı yollardan keçdiyini, hansı əsərləri yazdığını belə bilmirsən, bu halda ora necə direktor ola bilərsən?

Və hələ də ümid edirsən? Dağılsın dünya ki, səni ora o yaşda direktor təyin edəcəklər. Bu cür yanaşma ilə nə mədəniyyət qorunar, nə də o adın dəyəri yaşayar.

Nə deyim, vallah, mən, ümumiyyətlə, kreslo sevdalısı olmamışam. Bu günə qədər də müxtəlif yerlərdə müxtəlif kreslolar təklif olunub, gəlib keçib. Qəbul etdiyim də olub, etmədiyim də. Baxır işə... Bunu uzatmağımın səbəbi nə özümü tərifləməkdir, nə də "kreslo sevmirəm, mən başqayam" demək. Deməli məsələ nədir? Mus-mus deyə-deyə yenə gəlib çıxırıq "Mustafaya".

Yaş olub altmış, amma kreslo davası hələ də bitmir. Kreslo gözləyən də var, kreslodan yapışan da, kresloya özünü zəncirləyən də. İndi adama deyərlər, bəs deyilmi bu qədər illər, bir az da kənara çəkilin cavanlar gəlsin. Qoy onlar da "zad" eləsinlər. Öz enerjisini, öz baxışını ortaya qoysunlar. Çünki bu gün elə savadlı, işi bilən gənclər var ki, onların əlində məktəb də, sistem də daha fərqli nəfəs ala bilər.

Açıq yazacam, kimdənsə də çəkinmirəm. Söhbət bəzi bölgələrimizdəki məktəb direktorlarından gedir. Adamlar məktəbi buraxmaq istəmirlər. Yapışıblar kreslolarından, buraxmırlar. Desəm ki, iş görürlər, gürcü demiş, "candaba", qoy işləsinlər, amma işləmirlər axı. Məktəbi talan ediblər. Hətta cavan kadrlara belə imkan vermirlər ki, nələrsə etsinlər. Bir çox cavan kadr tanıyıram ki, məktəbdən çıxdı. Hətta bir çoxu status almış müəllimlər idilər.

Azər Musaoğlunun "Etiraz" yazısını oxudum. Yaxşı deyir, müəllimlər niyə etiraz etmirlər? Etiraz edirlər evə gedəndə öz-özlərinə, qohuma, tanışa, vəssəlam. Amma nə direktora bir söz deyilir, nə də təhsil nazirliyinə şikayət edirlər. Axı niyə təhsil nazirliyinə direktorun boşboğazlığını, bir baltaya sap olmadığını, qış aylarında uşaqları soyuqdan qırdığını, ağzı xarab, bir direktora yaraşmayan ədəb-ərkansız sözlərini, kiminsə uşağını alçaltdığını demirsiniz? Nə isə... İstəyirsən iyirmi beş yaşında ol, istəyirsən səksən, əgər kreslonun haqqını vermirsənsə, orada oturmamalısan. Qalx və burax, işi əhlinə ver. O kreslo oturmaq üçün yox, iş görmək, məsuliyyət daşımaq, nəticə yaratmaq üçündür. Əgər o kreslo sənə yox, sən kresloya xidmət edirsənsə, artıq yerini səhv salmısan.

**Binəli İslamoğlu**
*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# DÜZGÜN TƏRBİYƏ



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Bu yaxınlarda işə gedərkən minmiş olduğum "marşrut" dediyimiz ictimai nəqliyyat vasitəsinə oğlanlı-qızlı bir neçə yeniyetmə mindi və müəyyən bir məsafəni birlikdə qət etməli olduq. Bu müddət ərzində gənclərin evlərinin, avtomobillərinin və digər əşyalarının qiymətindən, özəlliyindən danışmaqlarından və geyimlərindən açıq şəkildə anlaşılırdı ki, maddi baxımdan imkanlı ailələrin övladları idilər. Ancaq özlərini aparmaları, qeyri-etik hərəkətləri və şit-şit danışıqları onların tərbiyə və mədəniyyət baxımından yoxsul olan bir ailədən çıxdıqlarının bariz göstəricisi idi.

Hər bir valideynin ən böyük arzusu övlad sahibi olmaqdır. Lakin məsələ sadəcə övlad sahibi olmaq deyil, ona verilən tərbiyənin keyfiyyətidir. Əgər biz uşağımıza gözəl əxlaq aşılaya bilmiriksə, bu, həm ailəmiz, həm də bütövlükdə cəmiyyət üçün böyük bir itkiyə çevrilir. Əsl hünər övladların sayını artırmaq deyil, onların mənəvi dəyərini və cəmiyyətə faydasını yüksəltməkdir. Elə bu səbəblə də mən düşünürəm ki, bəzən valideynlər övladlarını sadəcə yedizdirib-içirməyi, onları ən bahalı paltarlarla bəzəməyi öz vəzifələrinin sonu hesab edirlər. Lakin uşağı yalnız fiziki olaraq böyütmək, onu "vitrin malı" kimi geyindirib ruhunu ac buraxmaq ilahi hüzurda ağır məsuliyyət yaradır. Allah insanı ruh və bədənin vəhdəti olaraq yaradıb. Bədən üçün qida nə qədər zəruridirsə, ruh üçün də iman və əxlaq o qədər vacibdir. Dişi ağrıyan insanın ayağına məlhəm sürtmək necə faydasızdırsa, ruhunda boşluq olan uşağın yalnız qarnını doyurmaq da eləcə nəticəsizdir.

Peyğəmbərimizin (s.ə.s.) buyurduğu kimi, hər bir uşaq islam fitrəti üzrə, yəni təmiz bir vərəq kimi doğulur. Onu sonradan formalaşdıran, inancını və xarakterini müəyyən edən ailə mühitidir.

Uşaq əridilmiş maye kimidir; hansı qaba tökülsə, donanda onun şəklini alar. Əgər bir ata övladına "yalan danışma" deyib özü yalan danışırsa, uşağın qəlbinə yalan toxumlarını öz əliylə əkmiş olur. Tərbiyədə ən təsirli yol nəsihət deyil, valideynin öz həyat tərzi ilə göstərdiyi nümunədir.

Ailədə uşaqlar arasında fərq qoymaq – istər oğlan-qız, istərsə də böyük-kiçik ayrı-seçkiliyi – qardaşlar arasında ədavətə, valideynə qarşı isə soyuqluğa səbəb olur. İslam bizə uşaqlar arasında mütləq ədaləti əmr edir. Digər mühüm məqam isə ünsiyyət dilidir. Sərtlik və qışqırıq tərbiyədə çıxış yolu deyil. Necə ki, yavaş-yavaş yağan yağış torpağın dərinliklərinə hopur, mülayimliklə edilən nəsihətlər də uşağın ruhuna elə nüfuz edir. Həzrəti Ənəs tam on il Peyğəmbərimizə xidmət etmiş, lakin bircə dəfə də olsun "Bunu niyə belə etdin?" iradını eşitməmişdi. Bu, bizlər üçün ən böyük səbir və nəzakət nümunəsidir.

Övladlarımıza halal və haramı öyrətməklə yanaşı, onlara yaşadığımız cəmiyyətin bir parçası olmağın məsuliyyətini də aşılamalıyıq. Müasir dövrdə düzgün tərbiyə həm mənəvi saflıq, həm də dünyəvi biliklərin vəhdətidir. Övladlarımızı elə yetişdirməliyik ki, onlar Quranın nuru ilə daxili dünyalarını aydınlatdıqları kimi, elmin və ədəbin işığı ilə də dünyamızı daha yaşanılan hala gətirsinlər.

Unutmamalıyıq ki, uşağa verilən hər bir etik dəyər – istər dürüstlük, istər əməksevərlik, istərsə də başqasının haqqına sayğı – sabahın hüquqi və mədəni cəmiyyətinin təməl daşıdır. Mənəviyyatı güclü, dünyagörüşü geniş olan bir nəsil təkcə ailənin deyil, bütöv bir millətin ən böyük sərvətidir. Övlad tərbiyəsi həm ilahi bir borc, həm də vətəndaşlıq məsuliyyətidir.

# GÜRCÜSTANIN ÖZƏL UNİVERSİTETLƏRİNDƏ TƏHSİL HAQQI ARTIB

Özəl universitetlərin əksəriyyətində təhsil bir neçə yüz lari bahalaşıb. Özəl ali təhsil müəssisələri tələbələrə qarşılıqlı maliyyə və güzəşt təklif etməyi düşünürlər ki, onlar planlarını dəyişməsinlər.

"Səbəb inflyasiyadır", "ötən illərdə də qiymətlər bahalaşmışdı", "daxili marketinq qərarıdır", "bu dəyişiklik islahatla əlaqəli deyil" – universitetlərin bizim suallara cavabları belədir. Niyə "Gürcü Arzusu"nun ali təhsil islahatından sonra təhsil bahalaşdı və buna hakimiyyətin tələbələr üçün qrantları ləğv etməsimi səbəb oldu?

Qeyd edək ki, bu gün Gürcüstanda fəaliyyətdə olan 64 ali təhsil müəssisəsindən yalnız 19-u dövlət, 45-i isə özəldir.

"Azadlıq radiosu" 2026-cı ildə təhsil haqqının əsasən necə dəyişdiyini, bu dəyişikliyin nəyə aid olduğunu müəyyən edib.

**Qafqaz Universitetində** təhsil haqqı bir neçə istiqamətdə 400-1000 lari artıb. Nümunə üçün qeyd edək, hüquq fakültəsində illik təhsil haqqı 7590 laridən 7990 lariyə qədər artıb. Avropaşünaslıq, sosiologiya və ingilis filologiyasının təhsil haqqı 400 lari bahalaşıb və 4590 laridən 4990 lari olub. İqtisadiyyat fakültəsində təhsil haqqı 1000 lari artaraq 4990 laridən 5990 lari olub.

Universitet təhsil haqqının bahalaşması səbəblərini təhsil proqramlarının xərcləri ilə əlaqələndirir və cavab verir: "Bu kənar faktorlardan irəli gəlməyib".

Dedilər ki, daxili maliyyələşdirmə sistemi də olduğu kimi qalıb. Bu, gələcək tələbələrə Qafqaz Universitetində təhsillərini davam etdirməyə kömək edəcək.

Müəyyən fakültələrə (məsələn, biznes) yüksək tələb olduğuna görə qəbul üçün yerlərin sayı da artırılıb.

Qafqaz Universitetindən bildirdilər ki, qiymət yalnız bu il artmayıb. Zamanla, tələb və qəbulları nəzərə almaqla universitet təhsil haqqının artırılması qərarını verir.

Qafqaz universiteti 40-dan artıq proqrama tələbə qəbul edir.

**Qara Dəniz Universitetinin** 27 bakalavr proqramı var. Bu il yalnız bir – Amerikaşünaslıq istiqamətində təhsil haqqını artırıb. Burada illik təhsil haqqı ötən illə müqayisədə 600 lari artaraq 2590 laridən 3190 lari olub. Universitetdən bildiriblər ki, "bu marketinq qərarı" idi və ali təhsil sahəsində dəyişikliklərlə əlaqədar deyil. Bu mərhələdə başqa fakültələrdə təhsil haqqını artırmağı düşünmürlər. Kvotalar da olduğu kimi qalır.

Universitetlərdən bildiriblər ki, abituriyentlərin və gələcək tələbələrin öz seqmenti var və Qara Dəniz Universitetinə qəbul olmağı düşünənlərin qərarını dəyişdirməyəcəyini gözləyirlər.

**Azad və Aqrar Universitetlərdə** bu il heç bir fakültə və istiqamətlərdə təhsil haqqı artmır. Daxili qrant sistemi də dəyişməz qalır. Qarşılıqlı maliyyələşdirməni abituriyent bal və fərqləndirməyə əsasən alır.

**Gürcüstan Universiteti** əksər proqramlar üzrə təhsil haqlarını 250-500 lari civarında artırıb. Məsələn, əgər sənətşünaslıq istiqamətində təhsil 2950 lari idisə, indi təhsil haqqı 3200 lari olacaq. Jurnalistikada təhsil almaq 500 lari bahalaşıb və indi 5000 lari olacaq. Arxitektura istiqamətində illik təhsil haqqı 800 lari artıb, yəni 4200 lari əvəzinə 5000 lari olacaq. Ötən illə müqayisədə hüquqşünaslıq fakültəsində təhsil almaq 1500 lari bahalaşıb və təhsil haqqı 5000 lari olacaq.

Bəzi fakültələrdə (məsələn, biznesin idarəedilməsi) təhsil haqqı olduğu kimi qalıb. Bəzisində isə universitetin qərarı ilə, ümumiyyətlə, qəbul elan edilməyib (ingilis filologiyası, kompüter elmləri).

"Ancaq bu o demək deyil ki, gələn il də belə olacaq" – Gürcüstan Universitetindən cavab veriblər. Qeyd ediblər ki, təhsil haqqının artırılması ali təhsil islahatı və ondan yaranmış dəyişikliklərlə əlaqədar deyil.

Gürcüstan Universitetində onların universitetinə qəbul olmaq istəyən, ancaq dövlətdən əlavə qrant əldə edə bilməyəcək abituriyentlər üçün yeni maliyyələşdirmə paketi düşünüblər.

"Tələbələr bizdə də pulsuz təhsil ala biləcəklər və ya qismən daxili maliyyələşdirmə qazanacaqlar. Aydındır ki, bu, ballardan asılı olacaq. Məcburi köçkünlərə də 50 %-lik güzəştlərimiz var. Həmçinin bu il biz "ödənişin təxirə salınması" adlanan yeni bir təklif də əlavə etdik. Tələbələr üç il pulsuz təhsil ala və təhsil haqqını yalnız işə düzəldikdən sonra ödəyə bilərlər".

Gürcüstan Universitetində bu il 20 proqrama qəbul elan ediblər.

**Gürcüstan İctimai İşlər İnstitutu** (GIPA) bu il heç bir proqramda təhsil haqqını artırmayıb. Ancaq tələbələrə daha çox imkan vermək üçün onlara "Universitet Fondu" yaradıblar. Biznes qurumlarından və ya ayrıca şəxslərdən gələn məbləğ universitetə tələbələrin qarşılıqlı maliyyəsini təklif etmək və dövlət qrantının olmaması vəziyyətində yaranacaq çatışmazlığı doldurmaq imkanı verəcək.

Bu il GIPA doqquz bakalavr və üç peşə təhsili proqramı üzrə qəbul elan edib.

Bu universitetdə də ümid edirlər ki, burada oxumaq istəyən abituriyentlər öz seçimlərini dəyişməyəcəklər.

**Gürcüstan Milli Universitetindən** (SEU) bildiriblər ki, bu il qiymətləri artırmayıblar, hətta azaldıblar. Qəbul isə 18 bakalavr və 18 magistratura proqramına elan olunub.

**Gürcü-Amerika Universitetində** (GAU) təhsil fakültələrin əksəriyyətində təxminən 12 % bahalaşıb. Universitet təhsil haqqının dəyişdirilməsinin səbəbi kimi "ölkədəki inflyasiya templərini və proqramların inkişafı üçün zəruri olan maddi təminatı" göstərib.

"Proqramların davamlı inkişafı universitet üçün strateji prioritetdir, inflyasiya nəticəsində yaranan xərclərin, o cümlədən akademik və inzibati heyətlə bağlı xərclərin kompensasiya edilməsi isə zəruri komponentdir... Qiymət artımı bu amillərin balanslaşdırılmasına xidmət edir", – deyə GAU-dan bildiriblər.

Bu il həmin universitet 20 proqrama qəbul elan edib.

Eləcə də digər özəl universitetlər müxtəlif istiqamətlərdə qiymətləri artırıblar. Məsələn, **"Alta" Universitetində** də tibb fakültəsində təhsil almağın dəyəri 3500 laridən 3950 lariyə qədər artırılıb.

**Sulxan-Saba Orbeliani Universitetində** ictimai idarəçilik – 2500 laridən 2750 lariyə qədər artıb.

***Birbaşa və ya dolayı yolla? – Strategiyanı kim və niyə dəyişdi?***

"Əlbəttə, islahatın bu prosesdə təsiri var" – təhsil məsələləri üzrə araşdırmaçı Şalva Tabatadze bildirir. Onun qiymətləndirməsinə görə, qiymətləri o özəl universitetlər artırıblar ki, onlar özlərinə olan tələbatın onsuz da qalacağını və tələbə cəlb etməkdə çətinlik çəkməyəcəklərini gözləyirlər.

Əksinə, ən çox tələbat olan istiqamətlərdə (hüquq və ya biznesin idarəedilməsi) dövlət universitetlərində yerlərin sayı azalıb (məsələn, hüquqda 700 yer). Bu, özəl universitetlərə yeni imkanlar yaradır.

Özəl universitetlərin təhsil haqqını azaldan hissəsi bu qərarla öz tələbələri üçün universiteti daha cəlbedici etmək istəyiblər.

"Hətta dövlət universitetlərində ailələrin təhsil haqqı ödədikləri vaxtlarda belə, abituriyentlər yenə də özəl ali məktəbi seçib bir az daha çox ödəyə bilirdilər. İndi isə tələbələr dövlət universitetlərindəki populyar proqramlara qəbul olmağa çalışacaqlar. Bu dəyişiklik də ona xidmət edir ki, ora qəbul ola bilməyib özəl sektor üzrə paylananlar üçün həmin müəssisələr cəlbedici olsun".

Təhsil haqqını olduğu kimi saxlayan üçüncü qrup universitetlər isə hesab edirlər ki, onların hər bir halda onlara qəbul olmağa çalışacaq öz dəyişməz seqmenti var.

"Bu universitetlərdə qiymətlər onsuz da yüksək idi. Onlarda dövlət qrantları da var idi, lakin bu, sadəcə tələbələrin ödəniş yükünü yüngülləşdirirdi. Universitetlər üçün isə heç nə dəyişmir; onlar həmin məbləği yenə də ailə təsərrüfatlarından (valideynlərdən) alacaqlar".

***Tələbələr üçün nə dəyişəcək?***

"Regionlarda proqramların əlçatanlığı azalır" – Şalva Tabatadze bildirir.

Orada yalnız kənd təsərrüfatı və təhsil proqramları qalır (Axalkalaki, Axaltsixe, Telavi, Qori, Zuqdidi) və bu bölgələrdən olan abituriyentlər başqa bir proqramda (hüquq, biznes, texnologiya, mühəndislik və s.) təhsil almaq istəyirlərsə Tbilisi, Kutaisi və Batumidə təhsil almalıdırlar.

Bu halda, dövlət universitetlərinə qəbul şərtlərində belə təhsil almaq və yaşamaq xeyli xərc tələb edir.

Tbilisidə etnik azlıqlar, azərbaycandilli tələbələr üçün kvotalar azaldılır. Samtsxe-Cavaxetidə isə həm proqramlar, həm də kvotalar 54 yerdən 24 yerə endirilir.

Dövlət universitetlərində arzuolunan, nüfuzlu fakültələrə əlçatanlıq azalır və eyni zamanda özəl universitetlərdə qiymətlər artır.

"Ola bilsin ki, tələbə qrant ala bilmirdi, amma bilirdi ki, İlya Dövlət Universitetinin, Texniki Universitetin və ya Suxumi Universitetinin hüquq fakültəsində 2250 lariyə təhsil alacağı zəmanətlidir. İndi isə belə bir seçim artıq yoxdur və o, məsələn, hüquq təhsilini mütləq qiymətlərin artdığı və 3000 larini keçdiyi hansısa özəl universitetdə almalıdır".

***Daha bir faktor:***

Pulsuz proqramlara daha yüksək sosial-iqtisadi statusa malik tələbələr qatılırlar (çünki qəbul sistemi məktəb təhsilinə deyil, özəl repetitordan təhsil almaq qabiliyyətinə əsaslanır).

Birinci kurs tələbələrinin bir hissəsi (2580 tələbə) özəl universitetlərdə müxtəlif məbləğdə dövlət qrantları alıb. Şalva Tabatadzenin izah etdiyinə görə: Yarısı yüksək ödənişli seqmentdən (7000 lari və daha yuxarı) idi, təxminən 1200 tələbə üçün isə bu, təhsil haqqını ödəmək baxımından əhəmiyyətli bir məbləğ idi, çünki həmin universitetlərdə ödənişlər 2250 lari ilə 4000 lari arasında dəyişirdi.

"Bu ikinci qrup üçün giriş məhdud olacaq, onlar dövlət universitetinə daxil ola bilməyəcəklər və özəl universitetdə 2250 lari əvəzinə daha çox pul ödəməli olacaqlar."

***Seçimin məhdudlaşdırılması və əlçatanlığın artırılması:***

Bu gün vəziyyət belədir:

Dəyişikliklər əvvəlki illərdəki 15000 tələbə əvəzinə 21000 tələbə üçün maliyyələşdirməni nəzərdə tutur. Məsələn, hüquq istiqaməti üzrə 1600 tələbə ödənişsiz təhsil alacaq, halbuki keçən il hüquq proqramı üzrə dövlət cəmi 850 birinci kurs tələbəsini maliyyələşdirmişdi (özəl və dövlət universitetləri birlikdə nəzərə alınmaqla) və onların əksəriyyətinə yalnız 50 və ya 70 %-lik maliyyə ayrılmışdı.

Kutaisi və Batumidə tələbələrin yalnız 12 %-i təminatlı idi (8000 tələbədən yalnız 900-ü), qalanları dövlət universitetlərində təhsil haqqını ödəmişdilər. İndi isə 8000 tələbənin hamısı pulsuz təhsil alacaq.

Tədqiqatçı ilk baxışdan əlçatanlığın yaxşılaşacağını, lakin vacib amillərin – keyfiyyət və seçimin hesabına olacağını deyir.

Onların arzuolunmaz bir proqrama qəbul olmağa məcbur olmaları və ya yerlərin sadəcə doldurulmaması ehtimalı yüksəkdir.

Misal üçün: 2025-ci ildə Axaltsixedəki regional universitetlərdə aqronomluq və baytarlıq fakültələri üçün 45 və 40 yer ayrılmışdı. Yalnız dörd tələbə qəbul olunmuşdu. Hazırda 60 yer ayrılıb. Texniki Universitetin informatika fakültəsinə 150 yer var idi və cəmi 79 tələbə qəbul olunmuşdu. Bu il 290 yer ayrılıb və s.

"Belə şəraitdə abituriyentlər sadəcə pulsuz olduğu üçün oxumaq istəmədikləri bir fakültə və proqram seçməyə məcbur edilirlər. Kimisə istəmədiyi bir şeyi oxumağa məcbur etmək ağlasığmazdır. İkincisi, bu proqramlardakı yerlər doldurulmayacaq və biz pulsuz təhsilə bu xəyali artan əlçatanlıqla qalacağıq".

Ali təhsil sistemində planlaşdırılan islahat ilk dəfə 17 oktyabrda İmedi TV-də "Gürcü Arzusu"nun baş naziri İrakli Kobaxidze tərəfindən müzakirə edilib. Kobaxidze o zaman mövcud təhsil sisteminin müasir çağırışlara və standartlara cavab verə bilmədiyini və "Gürcü Arzusu"nun Gürcüstandakı tələbələrin xaricdə aldıqları təhsillə eyni təhsili almasını təmin etmək kimi "ambisiyalı məqsədi" olduğunu bildirib.

Təhsil Nazirliyinin 2025-ci ildə elan etdiyi ali təhsil islahatına əsasən, özəl universitetlərə qəbul olmaq istəyən tələbələr artıq dövlətdən qrant dəstəyi almayacaqlar. Təhsil naziri Givi Mikanadze o zaman islahatın əsas vurğusunun dövlət universitetlərinə yönəldiyini, 2026-cı ildən etibarən dövlət universitetlərinə qəbul olan bütün tələbələrin təhsilləri üçün tam dövlət maliyyəsi alacağını və "dövlət universitetlərinin bazar araşdırmalarına və ehtiyaclarına əsasən dövlət sifarişlərini yerinə yetirməli olduqlarını" bildirmişdi.

***2025-ci ilin milli imtahanlarının və qrantların statistikası aşağıdakı kimidir:***

- 31704 abituriyentdən 6500-dən çox abituriyent dövlət qrantı alıb;
- Bunlardan 1000-dən çox abituriyent 100 % dövlət qrantı alıb;
- 1400-dən çox abituriyent 70 % qrant alıb;
- 4000-dən çox abituriyent 50 % qrant alıb;
- Özəl universitetlərdə təhsil alan 2300-dən çox abituriyent qrant alıb.

**Mənbə: "Azadlıq radiosu"**

*Gürcü dilindən tərcümə etdi Aynurə Əliyeva*

# SADAXLI MƏKTƏBİNİN MÜƏLLİMİ: DÖVLƏTİN BÜTÜN İCTİMAİ MƏKTƏBLƏRDƏ MƏKTƏBLİ FORMASININ MƏCBURİ OLMASI İLƏ BAĞLI QAYDASI SOVET İTTİFAQINI VƏ ŞİMALİ KOREYANI XATIRLADIR



Marneuli bələdiyyəsinin Sadaxlı kənd 2 saylı ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi, məktəb dərsliklərinin həmmüəllifi Natia Mania ölkənin bütün vətəndaşlarını məhz dövlətin bəyəndiyi paltarı geyinməyə məcbur etməli olduğunu başa düşmədiyini deyir.

Pedaqoq məktəb formalarından daha önəmli bu gün təhsil sistemi qarşısında duran problemləri qeyd edir.

**– Natia, siz ibtidai pillədə məktəb formalarının məcburi qaydada qəbul olunmasına necə baxırsınız və bu yenilik şagird, məktəb, ümumiyyətlə, tədris prosesi üçün nəyi dəyişəcək?**

– Əlbəttə, məktəbli formalarının geyinilməsi öhdəliyi yenilik deyil. Bizim ölkə də, başqa ölkələrdə də forma geyinirdilər. Bəzi yerlərdə bu gün də geyinirlər. Ancaq dövlətin bütün ictimai məktəblərdə eyni formanın geyinilməsi, hər yerdə formanın məcburi olması ilə bağlı qaydası Sovet İttifaqı və Şimali Koreyanı xatırladır.

Əlbəttə, məktəbli forması təhsil prosesinə heç nə əlavə etməyəcək, nə də azaltmayacaq (ümid edirəm). Haradasa formanın qəbul edilməsinin hansısa akademik iştiraka təsir etdiyini heç eşitməmişəm. Yaxud forma necə təhsilə təsir göstərməlidir? Nəyi dəyişməlidir? – Mən bunu başa düşmürəm və heç vaxt da başa düşməyəcəyəm.

Konservativ baxışları olan adamlar təsdiq edirlər ki, eyni formalar şagirdin təhsil prosesinə istiqamətlənməsini gücləndirir. Ancaq mən keçmiş formalı şagird olaraq bununla razılaşmıram. Formanın sosial qeyri-bərabərliyi məhv etməsi ilə də razılaşmıram. Bu axmaqlıqdır, insanların gözünə kül üfürməkdir.

Kim kasıbdır və kim daha çox imkanlıdır, bu, başqa detallarda da görünür – uşaqların həmişə müxtəlif keyfiyyətdə olan çantası, qələm qabı, qələmləri və rəngli karandaşları, paltosu, gödəkcəsi, ayaqqabıları və sairdə.

Növbəti addım nə olacaq, "sosial bərabərliyə" nail olmaq üçün hamını inkubator cücələri kimi eyni cür palto və ayaqqabı geyinib gəzməyə, eyni çanta daşımağamı məcbur edək? Bu mümkün deyil! Bu səbəbdən formalar vasitəsilə sosial bərabərsizliyi aradan qaldırmaq da mümkün deyil.

Dövlət məktəbli forması tətbiq etmək əvəzinə kasıblığı aradan qaldırmaq, məktəbdə qida və ehtiyacı olan ailələrin uşaqlarına müvafiq yardım göstərməyin qayğısına qalsa yaxşı olardı. Ancaq bu sonuncu tədbirlər çox düşüncə, planlaşdırma, yaxşı təşkilatçılıq və böyük məbləğ tələb edir. Formalar haqqında sərəncam vermək isə heç bir resurs tələb etmir.

**– Valideynlərin böyük əksəriyyəti məktəbli formaları ilə bağlı qaydanın tətbiq edilməsini dəstəkləyir və bu yeniliyi bəyənir. Necə düşünürsünüz, bu əhvali-ruhiyyə nəyin göstəricisidir? Bir valideyn prizmasından sizin nə xoşunuza gələrdi?**

– Bəli, doğrudur. Ölkədə çox adam forma ilə bağlı qanunun qəbul edilməsini alqışlayır. Düşünürəm, bu, çoxlarının tənqidi düşünə bilməməsi və hazır ideyanı qəbul etməsinin göstəricisidir.

Ola bilsin, bu nostalji əhvali-ruhiyyənin günahı da ola bilər – valideynin, nənə-babaların əksəriyyəti forma ilə böyüyüb. İnsanlar uşaqlığı və gəncliyi üçün darıxır, uşaqlıqla əlaqədar forma fenomenini müsbət qəbul edirlər. Forma geyinmək tabe olmaq, konservatizmlə assosiasiya olunur. Bizim konservativ cəmiyyət uşaqların tabe edilməsini, çərçivəyə salınmasını sevir və bütün bədbəxtliklərin səbəbini "artıq" azadlıqda görür.

Cəmiyyətimiz fərqliliyi, qeyri-standartlığı qəbul etməkdə çətinlik çəkir. Formalar olmayanda məktəbdə də bu fərqlilik və qeyri-standartlıqla barışmalı olursan, onlar isə bunu istəmirlər. Hər kəsin eyni olmasını üstün tuturlar. Görünür, rəngarənglik və müxtəliflik əvəzinə, eynilik onların gözünü və qəlbini daha çox oxşayır.

Məktəbli forması kimi nəticəsiz və mənasız məsələlərin əvəzinə dövlətin kvalifikasiyalı müəllimlər hazırlamasına, məktəb infrastrukturunun qayğısına qalmasına, bulinqin aradan qaldırılmasına, müəllim və şagirdlərə psixoloji yardım etməsinə, məktəbdə təhlükəsiz, əməkdaşlıq mühitinin yaranmasına dəstək göstərməsinə sevinərdim, amma olmayan olmur.

**– Şagirdlərin özlərindən də bir çox fikirlər eşitmişik; yuxarı sinif şagirdləri, əgər onlar üçün də məktəbli forması məcburi olarsa, forma geyinmək öhdəliyi ilə razılaşmırlar. Azad geyim və ya forma bir məcburiyyət olmalıdır, yoxsa şagirdin özünün etdiyi bir seçim?**

– Düşünürəm ki, bu, öz-özünə olacaq – ümumilikdə forma geyinmək hər bir şagirdin seçimi olacaq. Hadisələrin başqa cür olmasını çətin təsəvvür edirəm. Bu halda forma geyinməzsə şagirdin cəzası (ya onun valideyninin) nə olmalıdır? Məktəbə buraxmayacaqlar? Məktəbdən çıxaracaqlar? Şagirdi etiraz etdiyi şeyi etməyə necə məcbur etməlisən. Bu ona heç cür maneə törətmir və başqasının təhsil prosesinə mane olmursa necə məcbur etməlisən? Sovet dövründə deyilik ki, bant taxmadığımıza görə saçımızı yolsunlar? Hesab edirəm ki, bu təşəbbüs baş tutmayacaq və bu qədər geyim də hədər olacaq.

İkinci variant budur ki, forma geyinməyi elə sərt tələb edəcəklər və şagirdləri elə qorxudacaqlar ki, heç kim qarşı çıxa bilməyəcək. Amma, nə bilim, tamamilə Şimali Koreyaya bənzəyəcəyimizə şübhə edirəm.

**– Siz özünüz forma geyinirdinizmi və bu öhdəlik sizdə hansı hissləri yaradırdı?**

– Bəli, Sovet dövründə doğulmuş-böyümüş uşaq kimi, mən də birinci sinifdən doqquz-onuncu sinfə qədər məktəbli forması geyinmişəm.

Qızlar üçün Sovet formasının bir neçə variantı var idi: yaz-payız (ağ köynək qızılı düymələrlə və mavi ətək) və qış (gündəlik qara və ya bayram üçün nəzərdə tutulmuş ağ önlüklü qəhvəyi yun don). Yadımdadır, ağ köynək və göy sintetik ətək mənə rahat deyildi. Qara önlük qəhvəyi donla çox zövqsüz idi. Ağ önlük isə tez kirlənirdi.

Həmişə istəmişəm ki, mənim formam daha çox zövqlü olsun. Bir il də ağ don və önlük tikdirdim ki, biraz fərqli, daha gözəl olsun. Fabrikada tikiləndən yaxşı idi, amma çox şey dəyişməmişdi, yenə də inqilaba qədər olan xidmətçi formasına oxşayırdı.

**– Təhsil Nazirliyi tərəfindən təklif olunan eskizlər nə dərəcədə məqbuldur? Əvvəlcə bizə dedilər ki, formanın üslubu ictimai müzakirə yolu ilə müəyyənləşəcək, sonra isə Nazirlik öz zövqünə uyğun hazırladı...**

– Bir-iki yerdə nəzər yetirdim, çox müşahidə etməmişəm. Bütün Gürcüstanın təhsil müəssisələrində eyni geyimin məcburi geyinilməsi mənim üçün o qədər qəbuledilməz ideyadır ki, Quççi və Şanelə dizayn sifariş versələr də xoşuma gəlməyəcək.

**– Maliyyə baxımından Nazirlik tərəfindən məktəbli formalarının tikilməsi nə dərəcədə əsaslandırılmış xərcdir? Baxmayaraq ki, bilirik ki, bəzi istisnaları çıxmaqla, xərcləri şagirdlərin valideynləri ödəməlidir.**

– Əgər valideynlər formanın pulunu ödəməlidirlərsə, xərc böyük olmayacaq, ancaq planlaşdırma, təşkil etmə və müəyyən resurslar yenə də lazım olacaq. Bunların hamısı hansısa dərzixananın və ya atelyenin zənginləşdirilməsinə xidmət göstərmirsə, həqiqətən də resursların israf edilməsidir.

**– Və yekunda, ümumi təhsildə nazirlik üçün formalardan daha prioritetli olmalı, formalardan daha mühüm olan üç problem qeyd edin.**

– Təhsil Nazirliyi üçün, təhsil və övladlarının gələcəyi ilə maraqlanan bütün insanlar üçün üç məsələ ən prioritetli olmalıdır:

1. Direktorların və müəllimlərin kvalifikasiyası.
2. Məktəblərin infrastrukturu.
3. Reallığa uyğunlaşdırılmış, adekvat milli tədris planı.

*Mənbə: edu.aris.ge*

Gürcü dilindən tərcümə etdi
**Aynurə Əliyeva**

# KİŞİLƏR ATLARI ÇAPIB GETDİLƏR



Tarixi binaları çox sevirəm. Elə bilirəm qədimlik verən gözəlliyi heç bir modern tikili verə bilməz. Bakı şəhərindəki klassik üslubda tarixi binaların haqında oxuyanda hələ orta məktəbdə oxuyurdum. Sonralar da tarixi, milli arxitekturalı əsərlər mənim stolüstü kitablarım oldu. Hətta asudə zamanımda dəfələrlə nənəmi özümə yoldaş edib İçərişəhəri, Nizami, Xaqani küçələrini, Neftçilər prospektini asta-asta gəzərdik. Nənəmin yorğunluğunu dəf etmək üçün binaların haqqında oxuduğum həqiqətləri, rəvayətləri danışardım, hətta onda da maraq oyatmaq üçün bəzən yalandan da əhvalatlar uydurardım ki, təki bezməsin. Binalara elə qürurla baxardım ki...

Bir dəfə sənəd vermək adıyla İsmayilliyə binasını – Bakı Şəhər İcra Hakimiyyətini, guya kimisə gözləmək bəhanəsiylə, bütün mərtəbələri, dəhlizləri gəzmişdim (Əmim icra hakimiyyətində işləyirdi). Özümü XX əsrin əvvələrində hiss edirdim. Qulağıma fayton təkərlərinin səsi gəlirdi, özümü xeyriyyəçi insanların arasında görürdüm... Bir dəfə də dəftər, qələm götürüb Azərbaycan Tarixi Muzeyində bütün otaqları birbir gəzmişdim, hətta estetikadan zaçota lazım olacaq deyə xeyli qeyd aparmışdım. Səhərdən ac-susuz hər eksponata maraqla baxan, məlumatları diqqətlə oxuyan, bələdçiyə ehtiyacı olmayan, sanki özü də elə burada – Tağıyevin evində yaşamış bu 18 yaşlı "uşaq" yəqin maraqla bərabər şübhə doğurmuşdu. O vaxtkı direktor xanım özü mənim yanıma gəlib maraqlarımla maraqlanmışdı, "Sən bura tarixə maraqdan çox maraq üçün gəlirsən elə bil" demişdi. O vaxt o cümlə qaranlıq qalsa da, heç nə demədim. Əlinə gələn qəpikləri manat edib kitaba, muzeyə verən, xəyalı göyərdə olan gənc bir qız üçün bu kuklaya oxşayan qadının (Püstəxanım Əzizbəyova) nə deməyi o qədər maraqlı deyildi. Beləcə, nə öyrənməkdən usandım, nə də o maraqlarım üçün yaşlandım...

Tarixi binalar nöqteyi-nəzəriylə Tiflis Bakıdan öndə olmuşdu. 1800-cü illərin əvvəlindən inzibati mərkəz olması səbəbindən büdcə hesabına indiki Rustaveli prospekti açıq muzeyə dönmüşdü. İlk dəfə opera teatrı, banklar məhz Tiflisdə inşa olunmuşdu. Bakı isə uzaq bir əyalət şəhəri idi. Şirvanşahların süqutundan uzun zaman sonra XIX əsrin mazutlu bir şəhəri idi. Bakı milyonçular şəhərinə çevrilərkən səxavətli KİŞİLƏR özündən xatirə qoymaq üçün sanki bir bəhsəbəhsə başladılar. O siyahıda digər bir millətin nümayəndəsi də varmış. Tağıyevə xəbər edirlər ki, filankəslər də mülk tikir. Deyir ki, neylək, qoy tiksin, burada qalacaq.

Doğrudan da bütün tikililər tarix oldu. Bugünkü Bakıda olan, şəhərə gözəllik verən mülklər həmin kişilərdən qaldı. Nə dəxli, biri oğluna tikdi, biri sevgilisinə... Əsas odur ki, tarixi bir əsər qoyub getdilər.

Yüz il əvvəl imkanlı kişiləri barmaqla saymaq olurdusa, bu gün imkanlıların sayı kifayət qədərdir. Razıyam, iş qururlar, qazanc artırırlar, amma restoranlara tökülən ətək dolu pulları göyə sovuranda dinməyəsən, neyləyəsən? Çətin qazandığı pulları çox asan xərcləyən bu kişilər görəsən bilirlərmi ki, Tac Mahal bir sevginin göz yaşıdır, İsmayiliyyə Binası atanın nakam oğula yanğısıdır, Bakı Opera Teatrı istehza edən qadına bir kişinin acı gülüşlə tikdirdiyi tarixi məkandır və s.

Nənəm demiş, əyri oturmayaq, düz danışaq. Hər kəndin, elin, obanın imkanlı övladları var. Hətta xaricdə yaşayanları da çox az adam saymaq olar ki, el bərəkallahı alsın, çox az adam. Hər dəstəyi dövlətdən tələb etməkdənsə, ELOĞLULARIMIZDAN tələb yox, xahiş etsək, etməzlərmi? Onlarla məktəblərimiz təmirsizdir. Kəndlərdə bağça yoxdur. İş yerləri məhduddur və s. Nəfəslərin, Vəfaların, Röyaların... başına tökülən o şabaşlarla xeyriyyəçilik etmək daha yaxşı olmazdımı? Atılan bu addım həm böyük maddi və mənəvi dəstək, həm də EL BƏRƏKALLAHI almaqdır.

Bakı zənginləri bir birlik yaratmışdılar, heç çəkinmədən mən filan işi quracam, filan məktəbi açacam, filan qədər xərc qoyacam deyirdilər. Həmin o İsmayiliyyə Binasında vaxtaşırı yığışar, xeyriyyə fonduna pul yığar, lazım olan işlərin olmasını müzakirə edərdilər. Axı bizim də belə oğullarımız var, bəs niyə çətin qazanılan ruzilərini asan yolla xərcləyirlər?..

Əminəm, elini, yurdunu həqiqətən sevən, qayğısını düşünən oğullarımız var. Sadəcə onları bir yerə yığıb istiqamət verən AĞSAQQALLARA ehtiyacımız var, əgər onlar da həmin atlara minib getmədilərsə...

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# XOŞBƏXTLİYİN SAXTA ÜZÜ



Hazırda elə bir dövrdə yaşayırıq ki, insanlar xoşbəxt olmağa yox, sadəcə xoşbəxt görünməyə çalışır. Xüsusilə sosial şəbəkələrin həyatımıza daxil olduğu bu zamanda hər kəs öz həyatının rejissoruna, aktyoruna və tamaşaçısına çevrilib. Paylaşılan şəkillər, yazılan statuslar, saxta təbəssümlər... Hamısı tək bir məqsədə xidmət edir, "Ən xoşbəxt mənəm" demək. Halbuki çox vaxt bu cümlə həqiqətin çox uzağında dayanır.

Sosial şəbəkələrdə gördüyümüz həyatlarla gerçək həyat arasında böyük bir uçurum var. İnsanlar yalnız ən gözəl anlarını paylaşır, ən ağrılı hisslərini isə gizlədirlər. Bu, bir növ sosial maskadır. İnsan özünü qorumaq, zəif görünməmək, bəzən də başqalarının gözündə daha dəyərli olmaq üçün bu maskanı taxır. Amma problem ondadır ki, zaman keçdikcə bu maska insanın üzünə yapışır və o, artıq harada gerçək, harada saxta davranmalı olduğunu ayırd edə bilmir.

Bəzi insanlar özünü hər zaman pozitiv görünmək məcburiyyətində hiss edirlər. Sanki kədər göstərmək ayıb, ağlamaq zəiflik, yorulmaq isə uğursuzluq kimi qəbul olunur. Bu düşüncə insanı özü də bilmədən tələyə salır. Beləcə insan öz hisslərini boğur, içindəki ağrını susdurur və nəticədə daxilində yığılan emosiyalar daha ağır bir yükə çevrilir. Xaricdən parıldayan həyat, daxilində sönən bir həyata çevrilir.

Ən təhlükəlisi isə insanın öz yaratdığı dünyası və gerçək dünyası arasındakı uçurumdur. İnsan başqa cür yaşayıb başqa cür görünəndə, bu uçurum onun ruhunda yorucu bir əsəbilik yaradır. O, hər gün bir rol oynayır və bu rol getdikcə onun həqiqi mənliyini kölgədə qoyur. Bir müddət sonra isə insan artıq özünü belə tanımır, çünki o, başqaları üçün yaratdığı obrazın içində itir.

Xoşbəxtlik nümayiş üçün deyil, hiss etmək üçündür. O, şəkillərdə deyil, insanın daxilində yaşayır. Əgər bir insan xoşbəxt olduğunu sübut etməyə çalışırsa, bəlkə də o, sadəcə buna özü inanmaq istəyir. Çünki həqiqi xoşbəxtlik səssizdir. Onun paylaşılmağa yox, yaşanmağa ehtiyacı var.

Bəzən ekranda gördüyümüz xoşbəxtliklər o qədər parlaq olur ki, onları izləyənlər öz həyatlarını bəyənməməyə başlayırlar. Bu gördükləri izləyicilərin özünə olan inamını zədələyir. İnsan düşünür ki, niyə mənim həyatım bu qədər maraqlı deyil? Niyə mən bu qədər xoşbəxt görünmürəm? Beləliklə, sosial şəbəkələr tədricən insanın psixoloji vəziyyətinə təsir edir, onu öz həyatından narazı salır və dəyərsizlik hissi yaradır.

Müasir dövrdə sosial şəbəkələr həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Günə gözümüzü açan kimi telefona sarılır, başqalarının həyatına baxaraq günə başlayırıq. Hər kəsin paylaşdığı şəkillər, videolar və xoşbəxt anlar bizə sanki bir həqiqəti pıçıldayır: hamı xoşbəxtdir, bir tək sən yox. Başqaları nə çox gəzir, gündə bir cür paltar geyinir, hər cür yemək yeyir. Halbuki gördüyümüz bu mənzərə çox vaxt gerçəkliyin özü deyil, sadəcə seçilmiş və bəzədilmiş bir hissəsidir.

Sosial şəbəkələrdə insanlar adətən həyatlarının ən gözəl, ən uğurlu və ən parlaq anlarını paylaşırlar. Heç kim ağladığı gecəni, daxili boşluğunu, qorxularını və ya uğursuzluqlarını göstərmək istəmir. Nəticədə ortaya saxta bir "mükəmməl həyat" tablosu çıxır. Bu tabloya baxan digər insanlar isə buna inanırlar.

Hər şey bir "paylaşım" üçün edilir. Gedilən məkanlar, alınan hədiyyələr, qurulan münasibətlər... Sanki həyat yaşanmaq üçün deyil, göstərmək üçün var. Bu isə insanın özündən uzaqlaşmasına, həqiqi hisslərini gizlətməsinə səbəb olur.

Unutmamalıyıq ki, sosial şəbəkələrdə gördüyümüz həyatların arxasında görünməyən həqiqətlər var. Hər gülüşün arxasında bir kədər, hər uğurun arxasında bir mübarizə gizlənə bilər. Heç kimin həyatı tam mükəmməl deyil.

Nəticə olaraq, sosial şəbəkələrdə hər gördüyümüzün arxasında bir hekayənin olduğunu unutmamalıyıq. Hər parlayan həyat həqiqətən işıqlı deyil. Bəzən ən çox gülən insanlar ən çox susanlardır. Ona görə də nə başqalarının həyatını ideallaşdırmaq, nə də öz həyatımızı süni şəkildə gözəlləşdirməyə çalışmaq lazım deyil. Çünki insanın ən böyük azadlığı olduğu kimi görünmək cəsarətidir.

**Afaq Azər**
*Yazıçı*

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Gürcü ədəbiyyatının iki böyük şəxsiyyəti – Konstantine Qamsaxurdiya ilə şairlər kralı Qalaktionun uzun və yaxşı münasibətləri olduğu hamıya məlumdur. Lakin... bir gün Konstantine Qamsaxurdiya düzəlməz bir səhv etdi... Ömrünün sonuna qədər özünü bağışlaya bilməyəcəyi bir səhv...

Budur, böyük yazıçı Qalaktiona həsr etdiyi emosional qeyd:

"Mənə bədbəxtlik düçar oldu – həmişə ən əziz dostlarımın yası – uşaqlıq dostlarım üçün ağlayacağam..."

On illər ərzində ən əziz dostlarımı itirmişəm: Giorgi Nikoladze, Aleksandre Abaşeli, Konstantine Çiçinadze... Sevimli qardaşlarım Aleksandre və Viktor. Nə edim, yaradanın iradəsinə qarşı kim çıxa bilər!

Qalaktion vəfat etdikdən sonra o tez-tez yuxuma girir. Dostluğumuzun uzun bir tarixi var.

1910-cu ildə Kutaisi İlahiyyat Seminariyasının tələbəsi Qalaktion yanıma gəldi və Gürcü Gimnaziyasına qəbul edilməsinə ona kömək etməyimi istədi. Biz tez-tez görüşürdük.

Onun gənclik şeirlərini oxumuşdum və dərhal müəllimlərimin – Gürcü Gimnaziyasının direktorunun yanına getdim. Onlar bundan böyük məmnuniyyət duyduqlarını bildirdilər və mənə söz verdilər: Onu heç bir imtahan olmadan yeddinci sinfə qəbul edəcəyik.

Bunu Qalaktiona dedim, amma nədənsə o, məktəbə girmək istəmirdi. Xaricə getdim və getməzdən əvvəl Kutaisidə onu axtardım. Amma nə fayda.

Bundan sonra çox illər keçdi. Qalaktion ilə 1918-ci ildə Tiflisdə görüşdüm. Görüşəndə həmişə məni öpürdü: Yanıma gələcəyinə söz verirdi, mənzilimdə isə nadir hallarda olub. Münasibətimiz olduqca qəribə idi.

Kitabım nəşr olunanda mənə zəng edib təbrik edirdi. Məni əmin etdi: Başqaları olmasaydı, sən və mən bu əsrə bəs edərdik. O, həqiqətən də mənimlə əylənmək istəyirdi, mən onu evimə dəvət edirdim, o da məni restorana doğru çəkirdi.

Bir dəfə mənimlə belə bir qalmaqal yaratdı: Saxelqamın (Dövlətnəşrinin) qarşısında maşınımı gözləyirdim. Qalaktion üstümə cumdu: Gəl, içək. Həmin gün Yazıçılar Birliyinə getməli idim və ona qoşulmadım. Həmin vaxtlar ov zamanı ayağım burxulmuşdu, ona görə də əsa ilə gəzirdim. O, əsanı əlimdən qapıb yerə çırpdı...

Bu, Qalaktionun dostlarına qarşı münasibəti idi.

Bu gün də özümü onun həyatına bu qədər müdaxilə etmədiyim üçün günahlandırıram. Onun həyatı yox idi.

Qalaktion əla lirikası ilə Edqar Ponu üstələdi, amma düşünürəm ki, Edqar Po onun həyatına böyük təsir göstərib.

İllər keçdi. Qalaktion hər yeni ildə məni təbrik edər, gələcəyinə söz verərdi, amma vədlərinə hər halda əməl edə bilmirdi.

Höte demişdi: Yazı, poeziya dilə tətbiq olunan bir şeydir. Qalaktion bunu etmir. O, klassiklərimizdən tamamilə müstəqildir.

Qalaktionun poeziyası, Rustavelininki kimi, təəssüf ki, Qafqazı keçə bilmədi, lakin onlar gürcü dilinin qaranlıq uçurumuna o qədər dərindən giriblər ki, onları oradan çıxarmaq üçün başqa bir Rustaveli və Qalaktion lazımdır.

Bu dahilərin tərcüməçiləri boş yerə çalışıblar: Dante, nə də Höte başqalarının dilində səsləndirilə bilər.

Dahilərin ekvivalentlərini yaratmaq mümkün olsaydı, onların dublikatları olardı.

Qoy Qalaktion yalnız bizim olsun, Gürcüstanın Qalaktionu, gürcü sözünün musiqisinin təkrarolunmaz orfeyi.

O, tanrıların yoludur
Və ildırım selidir,
Ona şöhrəti qalacaq,
Bizə isə – göz yaşımızın seli..."

*(Roin Papava, "Seçilmiş əsərləri").*

***

12 mart 1959-cu ildə, intiharından beş gün əvvəl, Qalaktion səhər tezdən məşhur rəssam Korneli Sanadzenin yanına getdi və bir neçə il əvvəl başladığı portreti – "Mən və Gecə"ni tez bitirməsini tələb etdi.

Rəssam qəribə şəkildə həyəcanlanan şairdən üzr istədi, çox məşğul olduğunu izah etdi və ertəsi gün gəlməyi təklif etdi.

Qalaktion qətiyyətlə bildirdi:

– Xeyr! Əgər çəksəniz, məni çəkin, yoxsa bir daha gəlməyəcəyəm!

Şairin qətiyyətli tələbi səbəbindən Korneli Sanadze rəsm çəkməyə başladı.

Bir neçə saat sonra etüdü bitirdikdən sonra Qalaktion ayağa qalxdı, rəsminə baxdı, bəyəndi, sonra rəssama "Bu, əvvəllər idi" şeirini oxudu, geri döndü və getdi. Qalaktionun Korneli Sanadzenin yanına bu səfəri onun sonuncu səfəri oldu.

Rəssamın hekayəti ilə tanış olduqda, həyəcanlı Qalaktionun taleyüklü bir addım atmağa hazırlaşdığını düşünməmək mümkün deyil.

Üç ildir ki, incidiyi Korneli Sanadze ilə qəfil barışığı, "Məni çəksən, çək" qəti tələbi və sonra 17 mart 1959-cu il faciəsi fonunda zahirən uşaqcasına "Bir daha gəlməyəcəyəm" təhdidi qorxunc kimi qəbul edilir.

Bununla belə, mən hələ də düşünürəm ki, bu epizodda əsas şey şairin Korneli Sanadzeyə oxuduğu şeirdir.

"Bu, əvvəllər idi" – beş bəndlik, adsız parlaq bir şeir – bu gün Qalaktionun avtoepitafiyası hesab olunur:

**Bu, əvvəl, çoxdan əvvəl idi,**
**Ürəyin xatırlamaq istəmədiyi şey –**
**Hər halda kimsə çələnglə gəldi**
**Və sənin sadə tabutunu bəzəyir.**

**Gedirsən... Əzab çəkirsən,**
**Sanki dənizin astanasında ot biçirsən,**
**Sənin ölümünü kim dedi?**
**Xeyr, məhz elə bu gün doğuldun.**

**Gedirsən... Artıq nə dünyəvi, nə də səmavi**
**Sənə təsəlli etməyəcək,**
**Sənin bədbəxtliyini kim dedi?**
**Xeyr, məhz elə bu gün xoşbəxtsən.**

**Gedirsən... Yolçuluğun şirin olsun,**
**Başqa bir mənzil daim nağıl idi.**
**Sənin sığınmadığını kim dedi?**
**Xeyr, sən sığınacaq tapdın.**

**Gedirsən... Çoxları sənin taleyinə həsrət qalır**
**Gözəl, tale başqa yerdə deyil,**
**Səni fəzalar məskunlaşdırıb –**
**Sən ölümsüzlüyün sakinisən.**

"Bu, əvvəllər idi" 1956-cı ildə yazılıb və müəllifin sağlığında yalnız bir dəfə – 1957-ci ildə, səkkiz cildlik əsərlər toplusunun son cildində nəşr olunub.

Bu şeir əslində kimə həsr olunmuşdu? Şairin son inci əsəri hansı sirri gizlədir?

*(https://textualscholarship.blogspot.com)*

***

1950-ci ildir. İsti yay günü. İncəbədənli, inanılmaz dərəcədə gözəl bir qadın Marcanişvili küçəsindəki bir böyük univermaqdan çıxdı və Vera körpüsünə tərəf yollandı. Elə orada yaşayan Qalaktion həmin vaxt balkonda idi. Gözünə dəydi! Yoxsa da ki, ilahi gözəlliyə malik olan bu qadını kim gözdən qaçırardı. O, onun ardınca düşdü!

Bu gözəl şairlərin kralı – Qalaktionun onu izlədiyini bilmirdi. Onlar körpüdən keçdilər. Elə orada yaxınlıqda avtobus vağzalı var idi. Qadın kassaya gedib bilet aldı.

Qalaktion da elə həmin kassaya özünü yetirdi:

– Əzizim, o qadının bilet aldığı avtobusa bilet ver, həm də onun yanında!

– Həmin qadın Bolnisi avtobusuna bilet alıb, – kassir ona dedi.

– Bəli, bəli. Yalnız onun yanında, – Qalaktion təkrarladı.

Şair gözəl qadının yanında oturdu və avtobus da yola düşdü.

Şairlərin şahının ağlını başından alan Eter Maqradze idi: Bundan başqa görünüşü ilə seçilməklə yanaşı, o, həm də savadlı idi və dilləri də yaxşı bilirdi. Onunla kim qarşılaşırdısa hamı heyran qalırdı: Ona şeirlər və mahnılar həsr edirdilər, bəziləri ondan evlilik istəyirdi, digərləri isə dostluq.

Yolda nədən danışdıqlarını heç kim bilmir. Bolnisinin mərkəzində bir-biri ilə vidalaşdılar: qadın evə tərəf, Qalaktion isə restorana tərəf yollandı. Oradan sərxoş halda çıxdı və ayağını sındırdı.

Mən ora gedəndə camaat şairi dövrəyə almışdı. Bu xəbər bütün rayona yayıldı. Raykon bu işə qarışdı və onunla şairlər kralına layiq olaraq davrandılar.

Bir il keçdi. Bolnisililər bir növ üzrxahlıq olaraq Qalaktion üçün möhtəşəm bir görüş təşkil etdilər. 1951-ci ilin yazı idi. Şair gəldi, ardınca qonaqlar: yazıçılar, tənqidçilər, aktyorlar gəldilər. Görüşlər silsiləsi başladı.

Mən klubda keçirilən axşamda iştirak edirdim. Camaat şairə olan sevgilərini və heyranlıqlarını açıq şəkildə ifadə edirdi və Qalaktionun sevinci hiss olunurdu.

Görüşün sonunda o, bir neçə şeir oxudu, halbuki, bütün axşam müddətində salonu gözdən keçirirdi, dincələ bilmirdi, kimisə axtarırdı... Tapmağa çalışdığı kəs Eter Mağradze idi. Şairin cəhdi boşa çıxdı: Bu gözəl qadın bir neçə ay əvvəl valideynləri ilə birlikdə Orta Asiyaya sürgün edilmişdi.

*(Şota Çakvetadze, "Qalaktionologiya", IX, 2022)*

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2026-CI İL
№ 08 (248)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# GƏNC YAZIÇI AFAQ AZƏRİN “SÜKUTUN SƏSİ” ROMANININ TƏQDİMATI OLUB




Bolnisi rayonunun Faxralı kəndində Şair Nəbi Ocağında gənc yazıçı Afaq Azərin “Sükutun səsi” romanının təqdimatı keçirilib.

“Yeni Yol” xəbər verir ki, aprelin 26-da baş tutan təqdimat mərasimində ziyalılar, müəllimlər, aşıqlar, şagirdlər iştirak edərək Afaq Azərin romanı haqqında geniş fikirlər söyləmiş, ona yaradıcılıq uğurları arzulamışlar.

“Sükutun səsi” romanı insan duyğuları, sevgi və sükut üzərində qurulmuş psixoloji əsərdir. Romanda hadisələr Poladın faciəvi taleyi və Sehrinin həqiqəti üzə çıxarmağa çalışması ətrafında cərəyan edir. Roman həm oxucunu düşündürür, həm də həyatın sükutuna diqqət çəkir.

Kitab Bakıda “Elm və təhsil” nəşriyyatında çap olunub, redaktoru Rəşid Faxralıdır.

Qeyd edək ki, “Sükutun səsi” yazıçının ikinci kitabıdır. Bu kitabdan əvvəl Afaq Azərin “Mənim tənha gözəlim” adlı romanı 2024-cü ildə Bakıda “Elm və təhsil” nəşriyyatında işıq üzü görüb.



Afaq Azər Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. Yaradıcılığa 2015-ci ildən başlayıb. 2019-cu ildən yazdığı romanlar “Yurd sevgisi” qəzetində hissə-hissə dərc olunaraq oxucuların diqqətini cəlb edib. 2022-ci ildə kicik həcmli hekayəsi Bakıda “Mücrü” nəşriyyatının “İlin hekayəsi” kitabında yer alıb.

# GÜRCÜSTANDA EMİQRANTLARIN VƏ İMMİQRANTLARIN SAYI AZALIB




Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, ölkədə 2025-ci ildə emiqrantların sayı 114 min 374 nəfər təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 5,8 faiz azdır. İmmiqrantların sayı isə 3,2 faiz azalaraq 131 min 501 nəfər təşkil edib.

Ötən ilin rəqəmlərinə əsasən, miqrasiya sahəsində müsbət saldo qeydə alınıb və bu rəqəm 17 min 127 nəfər təşkil edib.

Miqrasiya nisbətinin ən böyük hissəsi xarici vətəndaşları əhatə edir. Burada Ukrayna, Rusiya və Hindistan vətəndaşları üstünlük təşkil edir.

Ötən ilin miqrasiya statistikası göstərir ki, 2025-ci ildə Gürcüstanda 62 min 073 immiqrant, 58 min 799 emiqrant ölkəyə qayıdıb.

# ABİTURİYENTLƏRİN QEYDİYYAT MÜRACİƏTİ HANSI HALDA LƏĞV EDİLİR



2026-cı ilin vahid milli imtahanları üçün abituriyentlərin qeydiyyatı 6 apreldə başlayıb və 11 may saat 18:00-dək davam edəcək.

Qeydiyyat mərhələləri və prosedurlarından başqa, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz (NAEC) hansı hallarda abituriyentin qeydiyyat müraciətinin ləğv ediləcəyini izah edib.

NAEC-ə əsasən, abituriyentin qeydiyyat müraciəti ləğv ediləcək və ya ranqlaşdırma tərtib edilərkən onun nəticələri nəzərə alınmayacaq, əgər o:

1. İmtahandan əvvəl ərizə yazıb qeydiyyatın ləğvini tələb edibsə (ərizəyə abituriyentin şəxsiyyətini təsdiq edən sənədin surəti əlavə edilməlidir);
2. Tam orta təhsil haqqında və ya ona bərabər tutulan sənədi əldə edə bilməyibsə, yoxdursa;
3. Müvafiq müddətdə tam orta təhsil haqqında sənədi təqdim etməyibsə, əgər tam orta təhsil haqqında sənəd 2011-ci ilə qədər alınıbsa və ya onun imtahan kartında attestatın mərkəzə təqdim edilməsi barədə tələb qeyd olunubsa;
4. Müvafiq müddətdə tam orta təhsil və ya onun tanınması haqqında sənədi təqdim etməyibsə (Gürcüstanın işğal olunmuş ərazilərində tam orta təhsil almış abituriyentlər; Gürcüstanda həyata keçirilən, lakin xaricdə tanınmış ümumi təhsil proqramını bitirmə nəticəsində verilmiş, attestata bərabər tutulan və təhsilin növbəti pilləsində oxumaq hüququ verən təhsil sənədi olan abituriyentlər);
5. Tam orta təhsili xarici ölkədə alıbsa və müvafiq təhsilin tanınması haqqında sənədi cari ilin 11 avqust saat 18:00-dək Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə təqdim etməyibsə.

*Mənbə: edu.aris.ge*

# GÜRCÜSTAN BEYNƏLXALQ TURİZMDƏN 829,8 MİLYON DOLLAR GƏLİR ƏLDƏ EDİB

Gürcüstan Milli Bankının yaydığı məlumata əsasən, 2026-cı ilin yanvar-mart aylarında ölkə beynəlxalq turizmdən 829,8 milyon dollar məbləğində gəlir əldə edib, bu da il ərzində 0,5 % artım deməkdir.

Əsas ölkələrdən ümumi daxilolmalar aşağıdakı kimi paylanıb: Aİ – 140,7 milyon dollar (36 % artım), Türkiyə – 120,1 milyon dollar (12 % artım), Azərbaycan – 48,1 milyon dollar (1 % azalma), Ukrayna – 45,3 milyon dollar (34 % artım), Ermənistan – 28,8 milyon dollar (2 % artım), Belarus – 16 milyon dollar (1 % artım), Səudiyyə Ərəbistanı – 12,9 milyon dollar (48 % artım).

Qeyd edək ki, 2025-ci ildə Gürcüstanın turizmdən gəlirləri rekord səviyyədə – 4,69 milyard dollar təşkil edib (2024-cü ilin səviyyəsinə nisbətən 6 % artım).

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.